***ALİ MƏCLİSİN İCLASI***

*15 dekabr 2025-ci il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2025-ci il payız sessiyasının altıncı iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasda Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi və Nazirlər Kabinetinin digər üzvləri iştirak edirlər.

İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi (birinci oxunuş).

2. “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi (ikinci oxunuş).

3. “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi (birinci oxunuş).

Gündəliyə əlavəsi olan varmı?

Yoxdur.

Gündəlik qəbul olunur.

Hörmətli həmkarlar!

Gündəlikdə duran birinci məsələ “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsini Ali Məclisə təqdim etmişdir.

Qanun layihəsi büdcə zərfinə daxil olan digər sənədlərlə birlikdə deputatlara təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən aparıcı komitə təyin olunan Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyevin sədrliyi ilə 5 dekabr 2025-ci il tarixdə Ali Məclisin komitə sədrlərinin, İqtisadi siyasət komitəsi üzvlərinin, muxtar respublikanın aidiyyəti dövlət orqanlarının nümayəndələrinin və digər rəsmi şəxslərin iştirakı ilə keçirilmiş iclasda "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin müzakirəsi aparılmışdır.

Birgə iclasda aparılmış müzakirələrdən sonra qanun layihəsinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasına təqdim olunması qərara alınmışdır.

Layihə barədə məlumat verməsi üçün söz İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyevə verilir.

Buyurun, Emin müəllim!

**E.Şıxəliyev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Elşad müəllim!

Hörmətli deputatlar, kabinet üzvləri və iclas iştirakçıları!

İlk növbədə, hər birinizi salamlayıram!

Nəzərinizə çatdırım ki, Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsinin gəlirlərinin 483 milyon 178 min manat (o cümlədən, muxtar respublikanın vergilər, rüsumlar və digər ödənişləri 271 milyon 550 min manat, Azərbaycan Respublikasının dövlət büdcəsindən daxil olan dotasiya (transfertin yuxarı həddi) 211 milyon 628 min manat), xərclərinin 483 milyon 178 min manat, (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 441 milyon 623 min 200 manat, yerli gəlirləri 41 milyon 554 min 800 manat, mərkəzləşdirilmiş xərcləri 436 milyon 628 min 600 manat, yerli xərcləri 46 milyon 549 min 400 manat) məbləğində təsdiq edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Son illər ərzində Azərbaycan dünyada ən sürətli templə inkişaf edən dövlət kimi tanınır. Bunun başlıca səbəbi elmi əsaslara söykənən iqtisadi islahatların siyasi islahatlarla tamamlanması və uzlaşdırılmasıdır. Ölkəmizin bu təcrübəsi dünyada maraqla qarşılanır və öyrənilir. Dövlət başçısının qarşıya qoyduğu mühüm vəzifələr sırasında sosial-iqtisadi inkişafın innovativ və kreativ vasitələrlə sürətləndirilməsi mühüm yer tutur.

Ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi iqtisadiyyatın sahələrinin və regionların kompleks inkişafının təmin edilməsinə yönəldilmişdir. Məhz bu baxımdan muxtar respublikada iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramı yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə hazırlanmışdır. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsəd və prioritet istiqamətlər müəyyən edilmişdir.

Bütün bunlarla yanaşı, Naxçıvan Sənaye Parkının yaradılması isə ölkədə qeyri-neft-qaz sənayesi məhsullarının istehsalının artmasına, ixrac coğrafiyasının genişlənməsinə töhfə verəcək.

Eyni zamanda 2026-cı ildən muxtar respublikada fəaliyyət göstərən sahibkarlar üçün yeni vergi, gömrük və sosial güzəştlər paketinin tətbiq olunması muxtar respublikada sahibkarlıq mühitini canlandırmaqla yanaşı, əhalinin məşğulluq səviyyəsinin artmasına, yeni investisiyaların cəlbinə və regionun ümumi iqtisadi çəkisinin güclənməsinə səbəb olacaq. Bütün bunlar isə öz növbəsində, regionda iqtisadiyyatın yeni mərhələdə inkişafını təmin edəcəkdir. Qeyd edək ki, 2026-cı il üzrə Naxçıvan Muxtar Respublikasının büdcə layihəsinə nəzər saldıqda gəlir mənbələri üzrə artım müşahidə olunur ki, bu da artıq iqtisadi inkişafın yeni mərhələdə formalaşmasından xəbər verir.

Diqqətinizə görə minnətdaram!

**Sədrlik edən.** Sağ olun, Emin müəllim!

Qanun layihəsi barədə məruzə üçün söz Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılova verilir.

Buyurun, Həsən müəllim!

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikasının maliyyə naziri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar, hökumət üzvləri və sessiya iştirakçıları!

Əvvəlcə hamını salamlayıram!

Diqqətinizə çatdırmaq istərdim ki, 2025-ci il ərzində dövlət maliyyəsinin idarə olunması sahəsində normativ-hüquqi baza daha da təkmilləşdirilmiş, idarəetmə mexanizmlərinin səmərəliliyini artırmaq məqsədilə mühüm institusional və funksional yeniliklər həyata keçirilmişdir. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin imzaladığı "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 25 avqust 2025-ci il tarixli 489 nömrəli Fərman dövlət maliyyəsinin idarə olunması sahəsində həyata keçirilən islahatların hüquqi əsaslarının təkmilləşdirilməsi baxımından xüsusi strateji əhəmiyyət kəsb edən normativ akt kimi qiymətləndirilməlidir. Həmin fərmanla ölkədə fiskal siyasətin daha da təkmilləşdirilməsi, dövlət büdcəsinin gəlir və xərclərinin səmərəli və nəticəyönlü idarə edilməsinin gücləndirilməsi, həmçinin dövlət vəsaitlərindən istifadənin rəqəmsal əsasda daha şəffaf, nəzarət olunan və operativ mexanizmlərlə təmin olunması məqsədilə yeni və müasir yanaşmalar müəyyən edilmişdir. Fərmanın əsas istiqamətlərindən biri kimi "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin yaradılması xüsusi əhəmiyyət daşıyır. Bu sistem vasitəsilə büdcə vəsaiti alan qurumların maliyyə məlumatlarının vahid elektron platformada inteqrasiya olunmuş şəkildə mübadiləsinin təşkili, dövlət müəssisələrinin büdcə proqnozlarının operativ şəkildə izlənilməsi və təhlili, həmçinin maliyyə intizamının mərkəzləşdirilmiş rəqəmsal nəzarət mexanizmləri vasitəsilə gücləndirilməsi nəzərdə tutulur. Beləliklə, fərmanda əksini tapan tədbirlər yaxın dövrdə ölkənin maliyyə idarəçiliyinin keyfiyyətcə yeni mərhələyə keçəcəyini, dövlət maliyyəsinin planlaşdırılması, icrası və monitorinqi proseslərinin tam elektron platformalar üzərindən daha səmərəli, şəffaf və nəticəyönlü şəkildə həyata keçiriləcəyini göstərir. Bu islahatlar büdcə siyasətinin daha çevik və nəticəyönlü şəkildə formalaşdırılmasına, maliyyə axınlarının şəffaflığının artırılmasına, eləcə də dövlət maliyyə idarəçiliyinin müasir standartlara uyğunlaşdırılmasına xidmət etməklə, bütövlükdə fiskal idarəetmənin keyfiyyətcə yeni mərhələyə keçidini təmin edəcəkdir.

Hörmətli sessiya iştirakçıları,

2026-cı il üçün Naxçıvan Muxtar Respublikasının büdcə layihəsi ilə bağlı bildirirəm ki, Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcə layihəsi "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa, eləcə də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 30 yanvar 2025-ci il tarixli Sərəncamına və müvafiq normativ-hüquqi bazaya əsaslanmaqla hazırlanmışdır. Qanun layihəsinin tərtibi zamanı büdcə prosesinin planlı və ardıcıl şəkildə təşkili, növbəti büdcə ili üzrə əsas makroiqtisadi və fiskal proqnoz göstəricilərinin dəqiqləşdirilməsi, həmçinin büdcə vəsaitlərinin prioritet istiqamətlər üzrə səmərəli və məqsədyönlü bölgüsünün təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır.

2026-cı il və sonrakı üç il üçün Naxçıvan Muxtar Respublikasının büdcə layihəsi makroiqtisadi göstəricilər və ortamüddətli dövr üzrə makroiqtisadi proqnozlar nəzərə alınmaqla hazırlanmış, layihədə Naxçıvan Muxtar Respublikasında dövlətin əsas funksiya və vəzifələrinin, dövlət vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulan dövlət proqramlarının icrası, muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatının aparıcı sahələrinin inkişafı, nəqliyyat, kommunal və digər infrastruktur sahələrə aid layihələrin reallaşdırılması, eləcə də zəruri hesab edilən digər xərclərin maliyyələşdirilməsi üçün vəsaitlərin proqnozlaşdırılması nəzərdə tutulmuşdur.

Ötən dövrdə ölkə üzrə həyata keçirilən iqtisadi islahatlar, biznes mühitinin yaxşılaşdırılması, həmçinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası nəticəsində iqtisadi fəallıq artmış, ümumi daxili məhsulun həcmi yüksəlmişdir.

Belə ki, 2024-cü ildə Naxçıvan Muxtar Respublikasında 1 milyard 539 milyon 514 min 500 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur. Proqnoz göstəricilərinə əsasən 2025-ci ildə ümumi daxili məhsulun gözlənilən həcminin 1 milyard 636 milyon 384 min manat təşkil edəcəyi, 2026-cı ildə isə bu göstəricinin əvvəlki illə müqayisədə 6,7 faiz artaraq 1 milyard 745 milyon 469 min manata çatacağı gözlənilir.

Statistik hesabatlara əsasən Naxçıvan Muxtar Respublikasında orta aylıq əməkhaqqı 2023-cü il üçün 689 manat, 2024-cü ildə 782,4 manat, 2025-ci ildə isə 823,1 manat təşkil etmişdir və bu göstərici 2026-cı il üçün 882,5 manat məbləğində proqnozlaşdırılır. 2026-cı il üçün proqnozlaşdırılan orta aylıq əməkhaqqı məbləği cari ilə nisbətən 7,2 faiz, o cümlədən dövlət sektoru üzrə 7,4 faiz, qeyri-dövlət sektoru üzrə 7 faiz, 2024-cü ilə nisbətən 12,8 faiz, o cümlədən dövlət sektoru üzrə 13,6 faiz, qeyri-dövlət sektoru üzrə 10,6 faiz çoxdur. Əhalinin gəlirləri isə 2023-cü il üçün 1 milyard 450 milyon 310 min, 2024-cü il üçün 1 milyard 525 milyon 238 min manat məbləğində olmuşdur. Əhali gəlirlərinin bu dinamikası Naxçıvan Muxtar Respublikasında iqtisadi artımın, əmək bazarında inkişafın, sosial rifahın yaxşılaşdırılmasının, dövlət siyasətinin effektivliyinin əsas göstəricisidir.

Sadalanan göstəricilər növbəti büdcə ilində Naxçıvan Muxtar Respublikası büdcəsində muxtar respublika yığımlarının həcminin əhəmiyyətli artmasına, dotasiyadan asılılığın azalmasına, son nəticədə maliyyə müstəqilliyi yolunda əhəmiyyətli irəliləyişə nail olunmasına şərait yaratmışdır.

Növbəti il üçün planlaşdırılan göstəricilərə nail olmaq məqsədilə Naxçıvan Muxtar Respublikası büdcə gəlirlərinin 2024-cü ildə icrası və cari ilin gözlənilən icra göstəriciləri nəzərə alınaraq "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 yanvar 2020-ci il tarixli 4 nömrəli Qərarına əsasən Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi tərəfindən müvafiq hesablamalar aparılmış, büdcə gəlirlərinin daha da şəffaflaşdırılmasına nail olunmuşdur.

Nəzərə alınmalıdır ki, Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcə gəlirləri Naxçıvan Muxtar Respublikasında 2026-cı ilin yanvar ayından tətbiqi nəzərdə tutulan vergi güzəştlərinin təsiri nəzərə alınmaqla müəyyən edilmişdir. Bu güzəştlərin büdcə gəlirlərinə təsiri təxminən 22,5 milyon manat həcmində qiymətləndirilmiş və bu layihədə nəzərə alınmışdır. Azərbaycan Respublikası Prezidentinin xüsusi diqqət və qayğısı ilə reallaşması gözlənilən - Naxçıvan Muxtar Respublikasında tətbiqi nəzərdə tutulan güzəştlər həm iqtisadi, həm də sosial baxımdan çox əhəmiyyətli hesab edilir və bu güzəştlər növbəti dövrlərdə muxtar respublika iqtisadiyyatında daha sürətli böyüməni və inkişafı şərtləndirir.

Layihə barədə ətraflı məlumat vermək məqsədilə bildirirəm ki, Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcə layihəsində gəlirlər 483 milyon 178 min manat proqnozlaşdırılır ki, bu məbləğ 2025-ci ilin büdcə gəlirləri ilə müqayisədə 9 milyon 965 min manat və ya 2 faiz azdır. İlk baxışdan görünür ki, ümumi gəlirimizdə azalma var, lakin bildirilir ki, bu, cari ildən büdcənin gəlir tədiyyəsi kimi müəyyən edilmiş dotasiyanın həcmində 74 milyon manatlıq azalmanın təsirindəndir. Layihədə Naxçıvan Muxtar Respublikasının öz gəlirlərinin nəzərəçarpacaq dərəcədə (64 milyon manat məbləğində) artırılması nəzərdə tutulmuşdur.

Nəzərdə tutulan gəlirlərin 248 milyon 200 min manatı və ya 51,4 faizi Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşür ki, bu məbləğ 2025-ci illə müqayisədə 56 milyon 716 min manat və ya 29,6 faiz artıq planlaşdırılır.

Gəlirlər üzrə proqnozun 350 min manatı və ya 0,1 faizi dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşməklə 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 265 min manat və ya 4,1 dəfə çox nəzərdə tutulmuşdur.

Büdcə gəlirlərinin 17 milyon 500 min manatı və ya 3,6 faizi Azərbaycan Republikasının Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin xətti ilə daxilolmaların payına düşür ki, bu da 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 5 milyon 500 min manat və ya 45,8 faiz çox planlaşdırılır.

Gəlirlər üzrə proqnozun 1 milyon manatı və ya 0,2 faizi Naxçıvan Muxtar Respublikası Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadə üzrə dövlət fondunun payına düşməklə 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 300 min manat və ya 42,9 faiz çox vəsait planlaşdırılır.

Proqnozlaşdırılan vəsaitin 1 milyon 769 min manatı və ya 0,3 faizi sair daxilolmaların payına düşməklə 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 1 milyon 179 min manat və ya 2 dəfə çox planlaşdırılır.

Gəlirlər üzrə proqnozun 2 milyon 731 min manatının və ya 0,6 faizinin büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olması proqnozlaşdırılır ki, bu da 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 160 min manat və ya 6,2 faiz çox planlaşdırılır.

Əlavə olaraq bildirirəm ki, Azərbaycan Respublikası Prezidentinin 3 iyun 2019-cu il tarixli 719 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası”na əsasən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının büdcədənkənar xərclərinə Azərbaycan Respublikasının dövlət büdcəsində 2 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Biz 2023-cü ildən etibarən Naxçıvan Muxtar Respublikası büdcəsinin dotasiyadan asılılığının minimuma endirilməsi məqsədilə azalma tendensiyasını davam etdirərək, 2026-cı il layihəsində büdcə xərclərinin maliyyələşdirilməsində dotasiyanın payını cari dövrə qədərki ən aşağı səviyyəyə endirə bilmişik. Növbəti il büdcə layihəsinin plan göstəricilərinə əsasən Naxçıvan Muxtar Respublikasında ilk dəfə nisbət etibarı ilə yerli yığımlar dotasiyanı üstələmişdir. Belə ki, 2026-cı ildə Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərclərini tənzimləmək üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 43,8 faizini təşkil etməklə, 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 74 milyon 85 min manat və ya 25,9 faiz az, yəni 211 milyon 628 min manat həcmində dotasiya ayrılması nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikasının 2026-cı ildə öz gəlirlərinin 30,9 faiz və ya 64 milyon 120 min manat artımla, yəni 271 milyon 550 min manat nəzərdə tutulması dotasiyanın azalmasına səbəb olmuşdur.

Nəzərdə tutulmuş dotasiya məbləği Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsulun 12,1 faizini təşkil edir. Bu göstərici 2025-ci ilin göstəricisi ilə müqayisədə 5,4 faiz azalmışdır.

Hörmətli sessiya iştirakçıları,

2026-cı ildə Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:

- Fiziki şəxslərin gəlir vergisi büdcə daxilolmalarının 11,2 faizini təşkil etməklə 54 milyon manat məbləğində nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 7 milyon 124 min manat və ya 15,2 faiz çoxdur. Artıma əsasən 2026-cı il yanvarın 1-dən etibarən özəl sektorun gəlir vergisinə cəlb olunması, eyni zamanda məşğulluğun genişlənməsi, dövlət və özəl sektorda əməkhaqlarının mərhələli şəkildə artırılması nəticəsində vergitutma bazasının genişlənməsi nəticəsində gəlir vergisi ödəyicilərinin sayının çoxalması səbəb olmuşdur.

- Hüquqi şəxslərin mənfəət vergisi büdcə daxilolmalarının 1,9 faizini təşkil etməklə 9 milyon manat nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 8 milyon manat və ya 47,1 faiz azdır.

- Sadələşdirilmiş vergi büdcə daxilolmalarının 0,2 faizini təşkil etməklə 1 milyon manat nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 4 milyon manat və ya 80 faiz az planlaşdırılır.

Bu hissədə əlavə etmək istəyirəm ki, fiziki şəxslərin gəlir vergisi tədiyyəsi üzrə məbləğin qismən artması, hüquqi şəxslərin mənfəət vergisi və sadələşdirilmiş vergi tədiyyələri üzrə planlaşdırılan vəsait məbləğlərinin azalması, eyni zamanda hüquqi şəxslərin torpaq vergisi və əmlak vergisi üzrə daxilolmaların planlaşdırılmaması artıq Azərbaycan Respublikasının Milli Məclisində baxılmış Azərbaycan Respublikasının Vergilər Məcəlləsində dəyişiklik layihəsinə əsasən Naxçıvan Muxtar Respublikasında 2026-cı ilin əvvəlindən tətbiqi nəzərdə tutulan vergi güzəştlərinin təsiri səbəbindəndir.

- 2026-cı il büdcə layihəsində əlavə dəyər vergisi büdcə daxilolmalarının 15,3 faizini təşkil etməklə 74 milyon manat nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 13 milyon 240 min manat və ya 21,8 faiz artıq planlaşdırılır.

- Aksiz vergisi büdcə daxilolmalarının 20,7 faizini təşkil etməklə 100 milyon 300 min manat nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 49 milyon 812 min manat və ya 98,7 faiz çox planlaşdırılır.

Bu tədiyyə üzrə artıma əlverişli iqtisadi mühit çərçivəsində həm istehsal həcminin artırılması, həm də Azərbaycan Respublikasında istehsal olunan tütün məmulatlarına və onların əvəzedicilərinə tətbiq edilməsi nəzərdə tutulan aksiz dərəcəsindəki artım təsir etmişdir.

- Mədən vergisi büdcə daxilolmalarının 0,4 faizini təşkil etməklə 1 milyon 700 min manat məbləğində nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 440 min manat və ya 34,9 faiz artıq proqnozlaşdırılır.

- Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar büdcə daxilolmalarının 0,1 faizini təşkil etməklə 500 min manat nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 350 min manat və ya 3,3 dəfə artıq proqnozlaşdırılır.

Bu və dövlət əmlakının icarəyə verilməsindən daxil olma tədiyyələri üzrə bir neçə dəfə çox artıma səbəb, əsasən cari ilin daxilolmaları və dövlət əmlakının idarə edilməsində nəzərdə tutulan təkmilləşdirmənin nəzərə alınmasıdır.

- Dövlət rüsumu üzrə daxilolmalar büdcə gəlirlərinin 1,5 faizini təşkil etməklə 7 milyon 400 min manat məbləğində nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 400 min manat və ya 5,7 faiz artıq proqnozlaşdırılır.

- Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar büdcə gəlirlərinin 0,1 faizini təşkil etməklə 300 min manat nəzərdə tutulur ki, bu, 2025-ci illə müqayisədə 50 min manat və ya 20 faiz çox planlaşdırılır.

Eyni zamanda bildirilir ki, Naxçıvan Muxtar Respublikasının 2026-cı ildə şəhər və rayonlarının öz gəlirləri hesabına formalaşdırılması yönündə də uğurlu addımlar atılmışdır.

Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcə layihəsində muxtar respublikanın şəhər və rayonları üzrə gəlirləri 91 milyon 500 min manat, yerli xərcləri 46 milyon 549 min 400 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 49 milyon 945 min 200 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 4 milyon 994 min 600 manat məbləğində proqnozlaşdırılmışdır.

Cari ildən fərqli olaraq muxtar respublikanın dotasiya alan rayonlarının sayı azalmış, növbəti ildə Şahbuz rayonunun maliyyə yardımı almadan öz gəlirləri hesabına maliyyələşməsi nəzərdə tutulmuşdur.

Bununla da 2026-cı ildə Ordubad, Culfa və Sədərək rayonları istisna olmaqla, digər şəhər və rayon büdcələri dotasiyasız planlaşdırılmışdır.

Hörmətli iclas iştirakçıları,

Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcə layihəsində xərclər 483 milyon 178 min manat məbləğində proqnozlaşdırılır ki, bu məbləğ 2025-ci ilin büdcə xərcləri ilə müqayisədə 22 milyon 6 min manat və ya 4,4 faiz az, 2024-cü ilin icra göstəricisindən isə 53,6 milyon manat və ya 12,5 faiz çoxdur.

Qeyd edilməlidir ki, 2026-cı il üçün büdcə xərcləri Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafı, əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsini təmin etmək məqsədilə hazırlanmışdır.

Azalmanın əsas səbəblərindən biri “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 14 iyul 2025-ci il tarixli 245 nömrəli Qanunu ilə “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklərlə əlaqədardır. Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcəsinin kəsirsiz planlaşdırılması məhz müstəqil mədaxil mənbələrinə malik olan məqsədli büdcə fondlarının hesablarında ilin sonuna qalan istifadə olunmamış vəsaitin vahid xəzinə hesabının sərbəst qalığına köçürülməsi ilə bağlıdır. Qeyd edək ki, 2025-ci ildə büdcə 12 milyon 41 min manat kəsirlə planlaşdırılmışdı.

Büdcə xərclərinin 416 milyon 549 min 408 manatı, yaxud 86,2 faizi cari xərclər üzrə, 66 milyon 628 min 592 manatı və ya 13,8 faizi isə əsaslı xərclər üzrə proqnozlaşdırılır.

İqtisadi təsnifata uyğun olaraq 2026-cı ilin büdcə layihəsində əməyin ödənişinə büdcə xərclərinin 72,1 faizi həcmində və ya 348 milyon 286 min 372 manat, malların, iş və xidmətlərin satınalınmasına büdcə xərclərinin 10,9 faizi həcmində və ya 52 milyon 696 min 464 manat, subsidiyaların ödənilməsinə büdcə xərclərinin 1,6 faizi həcmində və ya 7 milyon 649 min 524 manat, qrantlar və digər ödənişlərə 150 min manat, sosial ödənişlərə büdcə xərclərinin 1,2 faizi həcmində və ya 5 milyon 908 min 626 manat, dövlət icbari şəxsi sığorta xərclərinə büdcə xərclərinin 0,4 faizi həcmində və ya 1 milyon 858 min 422 manat, qeyri-maliyyə aktivlərinin alınmasına isə büdcə xərclərinin 13,8 faizi həcmində və ya 66 milyon 628 min 592 manat vəsait ayrılması nəzərdə tutulur.

2026-cı il üçün Naxçıvan Muxtar Respublikasının büdcə layihəsində sosialyönümlü xərclərin xüsusi çəkisi 75,7 faiz səviyyəsində, yəni 365 milyon 616 min 580 manat məbləğində nəzərdə tutulur ki, bu, 2025-ci ilin analoji göstəricisindən 8,5 faiz və ya 28 milyon 668 min 226 manat çoxdur.

Növbəti ildə büdcə xərcləri funksional təsnifat üzrə aşağıdakı kimi proqnozlaşdırılır:

Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti köməkçi bölməsi üzrə büdcə xərclərinin 14,7 faizi həcmində - 71 milyon 177 min 850 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin müvafiq xərci ilə müqayisədə 8 milyon 859 min 845 manat və ya 11,1 faiz az, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 8 milyon 688 min 782 manat və ya 13,9 faiz çoxdur.

Elm köməkçi bölməsi üzrə büdcə xərclərinin 0,7 faizi həcmində - 3 milyon 307 min 6 manat vəsait proqnozlaşdırılır ki, bu, 2025-ci ilin eyni xərci ilə müqayisədə 76 min 655 manat və ya 2,4 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 297 min 845 manat və ya 9,9 faiz çoxdur.

Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə büdcə xərclərinin 17,8 faizi həcmində - 86 milyon 138 min 775 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin müvafiq xərci ilə müqayisədə 1 milyon 902 min 595 manat və ya 2,2 faiz az, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 13 milyon 184 min 395 manat və ya 18,1 faiz çoxdur.

Təhsil bölməsi üzrə büdcə xərclərinin 32,6 faizi həcmində - 157 milyon 479 min 439 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin analoji göstəricisi ilə müqayisədə 497 min 609 manat və ya 0,3 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 13 milyon 438 min 605 manat və ya 9,3 faiz çoxdur.

Səhiyyə bölməsi üzrə büdcə xərclərinin 2,7 faizi həcmində - 13 milyon 77 min 205 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin göstəricisi ilə müqayisədə 302 min 879 manat və ya 2,4 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 3 milyon 61 min 336 manat və ya 30,6 faiz çoxdur.

Sosial müdafiə və sosial təminat bölməsi üzrə büdcə xərclərinin 2,6 faizi həcmində - 12 milyon 705 min 590 manat vəsait proqnozlaşdırılır ki, bu, 2025-ci ilin müvafiq xərci ilə müqayisədə 1 milyon 783 min 64 manat və ya 16,3 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 3 milyon 781 min 929 manat və ya 42,4 faiz çoxdur.

Bu hissədə əlavə etmək istəyirəm ki, ümumilikdə, 2023-cü ildən indiyədək Naxçıvan Muxtar Respublikasının büdcə layihəsinin hazırlanması və onun nəzarət qurumu ilə müvafiq müzakirələrin aparılması nəticəsində büdcədə müvafiq funksional təsnifatlarda düzəlişlər aparmışıq və Hesabalama Palatası ilə konstruktiv əməkdaşlıq təmin olunub.

2026-cı ilin büdcə layihəsində qanunvericiliyə uyğun ehtiyata və ya istefaya buraxılmış və yerli icra hakimiyyəti orqanlarında mənzil uçotuna götürülmüş müvafiq hərbi qulluqçulara mənzil və ya fərdi yaşayış evinin tikintisi üçün torpaq sahəsi alanadək müvəqqəti yaşayış sahəsinin kirayəsi üçün kompensasiyanın ödənilməsinə 651 min manat məbləğində vəsait məhz bu bölmədə nəzərdə tutulmuşdur.

Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət bölməsi üzrə büdcə xərclərinin 5,4 faizi həcmində - 26 milyon 29 min 956 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin eyni xərci ilə müqayisədə 85 min 321 manat və ya 0,3 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 5 milyon 6 min 536 manat və ya 23,8 faiz çoxdur.

Mənzil və kommunal təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 3,5 faizi həcmində - 16 milyon 862 min 549 manat vəsait proqnozlaşdırılır ki, bu, 2025-ci ilin analoji göstəricisi ilə müqayisədə 2 milyon 10 min 93 manat və ya 10,7 faiz az, 2024-cü ilin icra göstəricilərinə əsasən 4 milyon 53 min 39 manat və ya 31,6 faiz çoxdur.

Kənd təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 2,2 faizi həcmində - 10 milyon 776 min manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin müvafiq xərci ilə müqayisədə 3 milyon 192 min 23 manat və ya 22,9 faiz, 2024-cü ilin icra göstəricilərinə əsasən 29 milyon 863 min 875 manat və ya 73,5 faiz azdır.

Bu hissədə əlavə etmək istəyirəm ki, 2024-cü il icra göstəricilərinə əsasən azalmanın səbəbi Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin xərcinin 2025-ci ildən sonra muxtar respublika büdcəsindən çıxarılaraq Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulması və icrasının Azərbaycan Respublikasının dövlət büdcəsinin xərclərindən həyata keçirilməsi ilə əlaqədardır.

Ətraf mühitin mühafizəsi bölməsi üzrə büdcə xərclərinin 2,9 faizi həcmində - 14 milyon 168 min 630 manat vəsait proqnozlaşdırılır ki, bu, 2025-ci ilin eyni xərci ilə müqayisədə 1 milyon 858 min 772 manat və ya 11,6 faiz az, 2024-cü ilin icra göstəricilərinə əsasən 4 milyon 470 min 830 manat və ya 46,1 faiz çoxdur.

İqtisadi fəaliyyət bölməsi üzrə büdcə xərclərinin 9 faizi həcmində - 43 milyon 655 min manat vəsait proqnozlaşdırılır ki, bu, 2025-ci ilin analoji göstəricisi ilə müqayisədə 253 min manat və ya 0,6 faiz az, 2024-cü ilin icra göstəricilərinə əsasən 21 milyon 413 min 92 manat və ya 96,3 faiz çoxdur.

Əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi üzrə büdcə xərclərinin 5,8 faizi həcmində - 27 milyon 800 min manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2025-ci ilin müvafiq xərci ilə müqayisədə 6 milyon 675 min 200 manat və ya 19,4 faiz az, 2024-cü ilin icra göstəricilərinə əsasən 6 milyon 994 min 627 manat və ya 33,6 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası büdcəsinin tərkib hissəsi olan “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu üzrə 2026-cı ildə gəlirləri xərclərinə bərabər olmaqla 17 milyon 500 min manat vəsait nəzərdə tutulur ki, bu da 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə gəlirləri üzrə 4 milyon 350 min manat çox, xərcləri üzrə isə 7 milyon 691 min manat azdır. Nəzərdə tutulan vəsait muxtar respublika ərazisində avtomobil yollarının və mühəndis qurğularının, o cümlədən yolların mühafizə zolaqlarında olan yaşıllıqların saxlanılması və istismarı ilə bağlı xərclərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

2026-cı il üçün büdcə layihəsində yeniliklərdən biri də odur ki, bu layihədə əvvəlki illərdən fərqli olaraq bəzi qurum və istiqamətlər üzrə xərclər bir xərc maddəsində deyil, ayrı-ayrı xərc maddələrində planlaşdırılmış, təsnifləşdirilməsi mümkün olan bütün xərclər büdcə xərclərinin tənifatına uyğun olaraq təsnifləşdirilmiş, bir xərc maddəsindən maliyyələşdirilmə minimuma endirilmişdir.

Növbəti ilin büdcə layihəsində nəqliyyat və rabitə köməkçi bölməsi üzrə 16 milyon manat məbləğində vəsait proqnozlaşdırılmışdır ki, 2025-ci ilin müvafiq xərci ilə müqayisədə 600 min manat və ya 3,6 faiz az, 2024-cü ilin icra göstəricilərinə əsasən 12 milyon 738 min 157 manat və ya 4,9 dəfə çoxdur.

Büdcə layihəsində dövlət əsaslı vəsait qoyuluşu, investisiya xərcləri üçün 22 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur ki, bu 2025-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə eyni səviyyədə, 2024-cü ilin icra göstəricilərinə nisbətdə isə 11 milyon 73 min 509 manat və ya 2 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2026-cı il büdcə layihəsində 7 milyon 300 min manat məbləğində vəsait nəzərdə tutulur ki, bu məbləğ 2025-ci ilə nisbətən 29,1 faiz və ya 3 milyon manat az, 2024-cü ilin icra göstəricilərinə əsasən 19 min 437 manat və ya 0,3 faiz çoxdur.

Hörmətli deputatlar,

Sonda qeyd etmək istərdim ki, 2026-cı il üçün hazırlanmış büdcə layihəsi fiskal, makroiqtisadi dayanıqlılığın qorunmasını və iqtisadi artımın stimullaşdırılmasını hədəfləyir. Növbəti ilin büdcə layihəsi sosial - iqtisadi sabitliyin qorunmasına, dövlət vəsaitlərindən səmərəli istifadəyə və Naxçıvan Muxtar Respublikasının dayanıqlı inkişafına xidmət edəcəkdir.

Yaradılmış imkana görə hörmətli deputatlarımıza bir daha təşəkkür edir və layihəni dəstəkləməyə dəvət edirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Ətraflı məruzəyə görə sağ olun, Həsən müəllim!

Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Hesablama Palatası Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcə layihəsinin təhlilinə dair analitik fəaliyyət aparmışdır.

Naxçıvan Muxtar Respublikasının 2026-cı il üzrə büdcə layihəsinin təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatı barədə məlumat verməsi üçün söz Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyliyə verilir.

Buyurun, Hafiz müəllim!

**H.İsmayılbəyli,** *Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Elşad müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq analitik fəaliyyət çərçivəsində Naxçıvan Muxtar Respublikasının 2026-cı il üzrə büdcə layihəsinin təhlili həyata keçirilmişdir.

Təhlilin aparılması zamanı Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və büdcə gəlirlərini təmin edən inzibatçı qurumlar tərəfindən təqdim edilmiş məlumatlardan istifadə edilmişdir.

Analitik fəaliyyət çərçivəsində qanun layihəsinin və layihə ilə birlikdə təqdim olunan məlumatların mövcud qanunvericilik aktlarına uyğunluğu, həmçinin nəzərdə tutulmuş muxtar respublika büdcəsinin gəlirləri və xərcləri üzrə proqnoz göstəricilərinin düzgünlüyü və tamlığının təhlili həyata keçirilmişdir.

Əsas parametrlər barədə çıxışa keçməzdən əvvəl bildirim ki, analitik fəaliyyət çərçivəsində müzakirələr əsasında həm qanun layihəsi, həm də onunla birlikdə təqdim edilən sənədlərdə müvafiq dövlət orqanları tərəfindən dəqiqləşdirilmələr aparılmışdır.

İndi isə 2026-cı il muxtar respublika büdcəsinin parametrlərinin təhlili üzrə əsas nəticələrə toxunmaq istərdim.

İlk olaraq Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin təhlili ilə bağlı:

Aparılan təhlillərə əsasən növbəti büdcə ili üzrə proqnozlaşdırılan gəlirlər 2024-cü il üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri ilə müqayisədə 36,5 milyon manat çox, cari ilin təsdiq edilmiş proqnoz göstəriciləri ilə müqayisədə isə 9,9 milyon manat azdır.

Qeyd etmək istərdim ki, son illərdə Azərbaycan Respublikasının bütün ərazisində həyata keçirilən uğurlu iqtisadi islahatların müsbət təsirləri Naxçıvan Muxtar Respublikasında da aydın şəkildə müşahidə olunmaqdadır. Aparılan iqtisadi islahatlar, biznes mühitinin daha da yaxşılaşdırılması, eləcə də büdcə gəlirlərinin artırılması istiqamətində fiskal institutlar tərəfindən inzibatçılıq tədbirlərinin gücləndirilməsi dövlət büdcəsindən ayrılan dotasiyalardan asılılığın azalmasına əhəmiyyətli dərəcədə töhfə vermişdir. Belə ki, cari il üzrə təsdiq edilmiş proqnoz göstəriciləri ilə müqayisədə dotasiya məbləğinin 74,1 milyon manat azaldılaraq 211,6 milyon manat səviyyəsində formalaşacağı proqnozlaşdırılır.

Növbəti il üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirlərinin cari ilin proqnoz göstəricilərindən daha az proqnozlaşdırılması da məhz dövlət büdcəsindən ayrılan dotasiya məbləğinin azaldılması ilə əlaqədar olmuşdur.

Həmçinin qeyd etmək istərdim ki, 2023-cü ildən etibarən Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən Naxçıvan Muxtar Respublikasının büdcə və büdcənin icrası barədə qanun layihələrinin təhlilinə dair həyata keçirilmiş analitik fəaliyyət zamanı bir sıra tövsiyələr təqdim edilmiş və müvafiq tövsiyələrə əsasən Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi tərəfindən büdcə strukturunda bir sıra düzəliş və təkmilləşdirmələr həyata keçirilmişdir. Qeyd edilən müsbət məqamların nəticəsində Naxçıvan Muxtar Respublikasının büdcə daxilolmaları istiqamətində inzibatçılıq tədbirlərinin gücləndirilməsinə qismən nail olunmuş, həmçinin büdcə xərclərinin optimallaşdırılması istiqamətində bir sıra uğurlu addımlar atılmışdır ki, bu da dövlət büdcəsindən asılılığın azaldılması və bununla da dotasiyaya qənaət imkanlarının formalaşmasına gətirib çıxarmışdır.

Bundan əlavə isə qeyd etmək lazımdır ki, vahid xəzinə hesabının Naxçıvan Muxtar Respublikası üzrə qalığının ilbəil artımının qarşısının alınması, həmçinin gəlir və xərcləri tənzimləmək məqsədilə dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikası büdcəsinə ayrılan dotasiya üzrə bir qədər də qənaət imkanlarının formalaşdırılması məqsədilə həmin qalıqdan növbəti ilin xərclərinin maliyyələşdirilməsi və ya digər istiqamətlərə yönəldilməsi ilə bağlı icra mexanizmi yaradılması sadalanan müsbət göstəricilərdəndir.

Həyata keçirilmiş təhlillərə əsasən qeyd edək ki, 2026-cı ilin Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri, o cümlədən yığımı təmin edən əsas fiskal qurumlar üzrə artım proqnozlaşdırılmışdır. 2025-ci ilə nisbətən Dövlət Vergi Xidmətinin xətti üzrə daxilolmaların 56,7 milyon manat, Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin xətti üzrə daxilolmaların isə 5,5 milyon manat artırılması proqnozlaşdırılmışdır. Növbəti ildə baza ssenari proqnozlarının icra olunacağı şəraitdə gəlir inzibatçıları üzrə proqnozların icrasında ciddi risklərin olmayacağı qənaətindəyik.

Aparılan təhlillərə əsasən 2026-cı il üçün Naxçıvan Muxtar Respublikası büdcəsi üzrə daxilolmaların 248,2 milyon manatı və ya 51,6 faizi Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, 17,5 milyon manatı və ya 3,6 faizi Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin, 2,7 milyon manatı və ya 0,6 faizi büdcə təşkilatlarının ödənişli xidmətlərinin, 1 milyon manatı və ya 0,2 faizi Ətraf Mühitin Mühafizəsi və Təbii Ehtiyatlardan İstifadə üzrə Dövlət Fondu istiqamətində daxilolmaların, 1,7 milyon manatı və ya 0,3 faizi isə sair daxilolmaların, 400 min manatı və ya 0,1 faizi Dövlət əmlakının icarəyə verilməsindən icarə haqqının, 211,6 milyon manatı və ya 43,8 faizi isə gəlir və xərcləri tənzimləmək məqsədilə dövlət büdcəsindən ayrılan dotasiyanın payına düşməklə proqnozlaşdırılmışdır.

Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalara cari ilin yenidən baxılmış proqnoz göstəriciləri ilə müqayisədə əsas artımla, ümumilikdə, 55,9 milyon manat və ya 98,6 faiz təşkil etməklə fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi və aksizlər üzrə daxilolmaların payına düşür.

Naxçıvan Muxtar Respublikasının 2026-cı il və sonrakı 3 il üçün sosial iqtisadi inkişafına dair təqdim edilmiş proqnoz göstəricilərinə əsasən qeyd edək ki, 2026-cı il üzrə Naxçıvan Muxtar Respublikası üzrə orta aylıq əməkhaqqının əvvəlki ilin faktiki göstəricisindən 11,6 faiz çox proqnozlaşdırılması, həmçinin 2026-cı ildən qeyri-neft və qeyri-dövlət sektoru üzrə muzdlu işə aid olan gəlir vergisinin azadolma müddətinin başa çatması ilə əlaqədar yeni mexanizmin tətbiqi fiziki şəxslərin gəlir vergisi üzrə proqnoz göstəricisinin artımla nəzərdə tutulmasını şərtləndirən amillərdən olmuşdur.

Növbəti büdcə ilində hüquqi şəxslərin mənfəət vergisi üzrə proqnoz məbləği cari ilin proqnoz göstəricisi ilə müqayisədə 8 milyon manat, aksizlər üzrə 25,5 milyon manat, dolayı vergi hesab edilən ƏDV üzrə 9,2 milyon manat, yol vergisi üzrə 5,5 milyon manat artım olmaqla proqnozlaşdırılmışdır.

Hüquqi şəxslərin mənfəət vergisi növbəti büdcə ilində cari ilin proqnoz göstəricisi ilə müqayisədə əsasən aksizlər, dolayı vergi hesab edilən ƏDV, yol vergisi üzrə artım olmaqla proqnozlaşdırılmışdır. Aksizlər və ƏDV üzrə proqnoz göstəricilərində müşahidə olunan artım növbəti büdcə ili üçün vergi potensialının genişlənəcəyini, iqtisadi aktivliyin və istehsal-dövriyyə həcmlərinin artacağını göstərir. Bu hal, vergi inzibatçılığının təkmilləşdirilməsi, istehsal və xidmət sektorlarında dövriyyələrin genişlənməsi, eləcə də real sektorun bərpası istiqamətində müsbət tendensiyanın davam edəcəyini təsdiqləyən əsas amillər hesab edilir.

Bununla yanaşı, cari ilin ötən doqquz aylıq icra göstəricilərinə nəzər saldığımız zaman sadələşdirilmiş vergi üzrə plan göstəricilərinin tam icra edilməməsi, həmçinin növbəti büdcə ili üzrə cari il üçün təsdiq edilmiş proqnoz göstəricilərindən 0,5 milyon manat həcmində az vəsaitin daxil olacağının planlaşdırılmasını, növbəti büdcə ilində bəzi tədiyyə növləri üzrə artımlara dair iqtisadi əsaslandırmaların tam təmin edilməməsini nəzərə aldığımız zaman gəlir artımının dayanıqlılığının təmin edilməsi və proqnozlaşdırma prosesində iqtisadi əsaslandırmaların gücləndirilməsinin vacibliyi barədə qənaətə gəlmək olar. Bundan əlavə gəlir proqnozlarının tərtibində makroiqtisadi göstəricilər, vergi bazasının dinamikası və real iqtisadi artım imkanları nəzərə alınmalı, şəffaf və əsaslandırılmış yanaşma təmin edilməlidir.

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin xətti ilə Naxçıvan Muxtar Respublikası büdcəsinə daxilolmalara nəzər saldığımız zaman müvafiq istiqamət üzrə daxilolmaların 2024-cü il üzrə icra göstəricisinin təsdiq edilmiş proqnoz göstəricisi ilə müqayisədə 85,8 faiz həcmində, cari il üzrə gözlənilən icra göstəricilərinin isə proqnoz göstəriciləri ilə müqayisədə 33,3 faiz həcmində artıq olması, habelə cari ilin 9 aylıq icra göstəricilərinin 13,8 milyon manat və ya cari il üçün təsdiq edilmiş proqnoz göstəriciləri ilə müqayisədə 15 faiz, cari ilin 9 aylıq proqnoz göstəriciləri ilə müqayisədə isə 55 faiz artıq olması, daxilolmaların plan göstəricilərini üstələməsi, habelə proqnoz göstəricilərinin özünü doğrultması baxımından müsbət hal olsa da, 9 aylıq icra göstəricilərinin illik proqnoz göstəricilərindən yuxarı olması, habelə, ümumilikdə, icra göstəricilərinin proqnoz göstəricilərindən davamlı olaraq 30 faizdən də yuxarı olması bu istiqamət üzrə büdcə daxilolmalarının proqnozlaşdırılması prosesində iqtisadi əsaslandırmaların gücləndirilməsi zərurətinin olduğu barədə qənaətə gəlməyə əsas vermişdir.

2026-cı il üzrə Naxçıvan Muxtar Respublika büdcəsində büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 2 milyon 731 min manat proqnozlaşdırılmışdır ki, bu da cari ilin təsdiq edilmiş proqnoz göstəriciləri ilə müqayisədə 160 min manat və ya 6,2 faiz çoxdur. Aparılan təhlillərə əsasən qeyd edək ki, analitik fəaliyyət çərçivəsində Naxçıvan Muxtar Respublikası büdcəsinin və büdcənin icrasına dair qanun layihələrinin təhlili zamanı Hesablama Palatası tərəfindən təqdim edilmiş tövsiyələr də nəzərə alınmaqla büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların strukturunda bir sıra dəyişikliklər həyata keçirilmiş və büdcə təşkilatı olmayan bir sıra müəssisələrin daxilolmaları büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların strukturundan çıxarılmışdır.

Aparılan təhlillərə əsasən növbəti büdcə ili üzrə büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların artımla nəzərdə tutulması əsasən Naxçıvan Muxtar Respublikasının Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən göstərilən ödənişli tibbi xidmətlər üzrə proqnozlaşdırılan vəsait hesabına olmuşdur. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən göstərilən ödənişli tibbi xidmət növlərinin qiymət cədvəli" ilə bağlı Qərarının ləğv edilməsi ilə 2024-2025-ci illər üzrə müvafiq istiqamətdə büdcədənkənar gəlirlər proqnozlaşdırılmamış və daxilolma formalaşmamışdır. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Kollegiyasının 30 aprel 2025-ci il tarixli Qərarına əsasən "Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidməti tərəfindən sanitariya-epidemioloji xidmət üzrə həyata keçirilən ödənişli tibbi xidmətlərin növlərinin qiymət cədvəli" təsdiq edilmiş və bununla da müvafiq istiqamətdə növbəti büdcə ili üzrə 664,5 min manat vəsait daxil olacağı proqnozlaşdırılmışdır ki, bu da büdcə təşkilatlarının büdcədənkənar gəlirləri üzrə proqnoz göstəricilərinin cari ilin proqnoz göstəriciləri ilə müqayisədə artıq proqnozlaşdırılmasını şərtləndirən əsas amil olmuşdur.

Qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri proqnozlaşdırılan zaman bir sıra mövcud gəlir potensialı olan istiqamətlər hələ də tam olaraq nəzərə alınmamış, müvafiq istiqamətdə əldə edilmiş nəticələr Naxçıvan Muxtar Respublikasının 2025-ci il üzrə büdcə layihəsinin təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatına və 2026-cı il üzrə büdcə layihəsinin təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatına əlavə olunmuşdur.

İndi isə xərclərin təhlili ilə bağlı:

Aparılan təhlillərə əsasən qeyd edək ki, 2026-cı il üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri funksional təsnifatın 6 bölməsi üzrə azalma ilə, 5 bölməsi üzrə isə artımla nəzərdə tutulmaqla 483,2 milyon manat proqnozlaşdırılmışdır ki, bu da cari ilin təsdiq edilmiş büdcə xərclərindən 22 milyon manat və ya 4,4 faiz azdır.

Ən böyük azalma cari ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 9,3 milyon manat və ya 11,2 faiz az olmaqla ümumi dövlət xidmətləri bölməsi üzrə olmuşdur. Təhlillər göstərir ki, ümumi dövlət xidmətləri bölməsi üzrə azalma əsasən 7,5 milyon manat təşkil etməklə iqtisadi təsnifatın əməyin ödənişi bölməsi üzrə olmuşdur. Təqdim edilən məlumatlara əsasən azalmanın səbəbi əsasən dövlət qurumlarında olan vakant vəzifələr üzrə komplektləşmə faizinin aşağı götürülməsi, habelə ümumi dövlət xidmətləri bölməsindən maliyyələşən birbaşa kredit sərəncamçısının xərclərinin muxtar respublika büdcəsi xərclərindən azaldılaraq Azərbaycan Respublikasının dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinə şamil edilməsi ilə əlaqədar olmuşdur.

"Ümumi dövlət xidmətləri" bölməsindən sonra ən böyük azalma cari ilin təsdiq edilmiş xərcləri ilə müqayisədə 6,7 milyon manat və ya 19,4 faiz həcmində olmaqla isə "Əsas bölmələrə aid edilməyən xidmətlər" bölməsi üzrə olmuşdur.

Qeyd edək ki, "Azərbaycan Respublikasının Vahid Büdcə Təsnifatı"nın tələblərinin təmin edilməsi məqsədilə Hesablama Palatasının müvafiq tövsiyələri nəzərə alınmaqla "Ehtiyata və ya istefaya buraxılmış vətəndaşların bəzi kateqoriyalarına müvəqqəti mənzil kirayəsi xərclərinin ödənilməsi" ilə bağlı nəzərdə tutulan vəsait müvafiq bölmə üzrə deyil "Sosial müdafiə və sosial təminat" bölməsi üzrə nəzərdə tutulmuşdur. Bu dəyişiklik müvafiq bölmə üzrə xərclərdə azalmaya təsir etsə də, sosial müdafiə və sosial təminat bölməsi üzrə nəzərdə tutulan xərclərin cari ilin təsdiq edilmiş xərcləri ilə müqayisədə artımla proqnozlaşdırılmasına səbəb olan əsas amillərdən biri olmuşdur.

Bundan əlavə isə yuxarıda qeyd etdiyimiz kimi funksional təsnifatın beş bölməsi artımla proqnozlaşdırılmışdır ki, ən böyük artım da məhz 1,8 milyon manat olmaqla sosial müdafiə və sosial təminat bölməsi üzrə olmuşdur. Müvafiq artımın əsas səbəbləri “Azərbaycan Respublikasının Vahid Büdcə Təsnifatı”nın tələblərinin təmin edilməsi məqsədilə, Hesablama Palatasının müvafiq tövsiyələri ilə yanaşı, müavinət, təqaüd və əməkhaqqı üzrə nəzərdə tutulan vəsaitlərin artırılması hesabına olmuşdur. Nəticə etibarilə, bu istiqamətlər üzrə, ümumilikdə, 1,1 milyon manat həcmində vəsaitin artımla proqnozlaşdırılması sosial rifahın yüksəldilməsinə, əhalinin həssas təbəqələrinin müdafiəsinin gücləndirilməsinə və sosial siyasətin icrasında davamlılığın təmin olunmasına xidmət edəcəyi barədə qənaətə gəlinmişdir.

Növbəti büdcə ilində funksional təsnifatın bölmələri üzrə Naxçıvan Muxtar Respublikası büdcəsində mütləq ifadədə ən az artım “İqtisadi fəaliyyət” bölməsi üzrə nəzərdə tutulmuşdur. Belə ki, bu bölmə üzrə proqnozlaşdırılan xərclər 2025-ci ilin təsdiq edilmiş xərclərindən 57 min manat çoxdur. Artıma səbəb isə "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti üçün proqnozlaşdırılan büdcə xərclərinin artımı nəticəsində olmuşdur. Mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış keyfiyyətinin və sosial rifahın yüksəldilməsi istiqamətində gənc ailələr, dövlət qulluqçuları və sosial həssas təbəqələr üçün mənzil əldə etmək imkanlarının genişləndirilməsi məqsədilə müvafiq istiqamətdə cari il üçün təsdiq edilmiş büdcə xərcləri 1,3 milyon manat və ya 46,4 faiz həcmində artırılmışdır.

Bundan əlavə qeyd etmək istərdim ki, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliyə əsasən məqsədli büdcə fondlarının hesablarında ilin sonuna qalan istifadə edilməmiş vəsaitin vahid xəzinə hesabının sərbəst qalığına köçürülməsi ilə əlaqədar, ötən ildən qalıqda qalan istifadə olunmamış vəsaitin istifadə edilməsi məqsədilə son illərin təcrübəsində tətbiq edilən kəsirin maliyyələşdirilməsi mənbələrinə daxil edilməsi mexanizminə ehtiyac qalmamışdır. Həmçinin qeyd edək ki, cari ildən fərqli olaraq qəbul edilmiş yeni dəyişiklik nəticəsində Naxçıvan Muxtar Respublikası büdcəsində kəsirin yaranmasına səbəb olan amillər aradan qaldırılmış və növbəti büdcə ili üzrə kəsir formalaşmamışdır.

Hesablama Palatası tərəfindən Analitik fəaliyyət çərçivəsində təqdim edilən tövsiyələr də nəzərə alınmaqla son illərdə Naxçıvan Muxtar Respublikası büdcəsinin tərtibi və icrası prosesində müşahidə edilən müsbət məqamlarla yanaşı qeyd etmək istərdim ki, növbəti büdcə ili üzrə təsdiq edilmiş bəzi xərc istiqamətlərinin cari ilin ötən 9 ayı ərzində icra faizlərinin çox aşağı olması bu istiqamətlər üzrə müvafiq xərclərin zəruriliyi ilə bağlı əsaslandırmaların bir daha dəqiqləşdirilməsinin vacibliyini göstərir.

Həmçinin analitik fəaliyyət çərçivəsində aparılan təhlillərə əsasən növbəti büdcə ili üzrə Naxçıvan Muxtar Respublikası büdcəsinin tərtibi zamanı bəzi istiqamətlər üzrə Vahid Büdcə Təsnifatının tələblərinin tam gözlənilmədiyi hallar müşahidə edilmişdir. Müvafiq istiqamətlərdə dürüstləşdirilmələrin aparılması məqsədilə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə müzakirələr aparılmış və müvafiq dəqiqləşdirilmələr aparılması ilə bağlı zəruri məlumatlar daha ətraflı olaraq Naxçıvan Muxtar Respublikasının 2026-cı il üzrə büdcə layihəsinin təhlilinə dair analitik fəaliyyət üzrə auditor hesabatına əlavə olunmuşdur.

Hörmətli iclas iştirakçıları,

Aparılan təhlillər göstərir ki, müvafiq istiqamətlər üzrə həyata keçirilən tədbirlər dövlət maliyyə idarəçiliyinin səmərəliliyinin artırılmasına, resursların daha məqsədyönlü şəkildə yönəldilməsinə və fiskal intizamın gücləndirilməsinə xidmət edir. Məlumatların müqayisəli təhlili həm mövcud tendensiyaların düzgün qiymətləndirilməsinə, həm də gələcək dövrlər üçün daha əsaslandırılmış qərarların qəbuluna imkan yaradır. Ümumilikdə, əldə olunan nəticələr planlaşdırma, nəzarət və hesabatlılıq mexanizmlərinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin tərtibi və icrasına dair qanunvericilik bazasının daha da təkmilləşdirilməsinin vacibliyini təsdiq edir.

Diqqətiniz üçün sağ olun!

**Sədrlik edən.** Sağ olun, Hafiz müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Buyurun, Şəhla xanım!

**Ş.Əhmədova.** Hörmətli Bəxtiyar müəllim, hörmətli iclas iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün hazırlanmış büdcə layihəsi ilə tanış oldum. Layihə ilə tanış olarkən büdcədə ötən illərlə müqayisədə səhiyyə sahəsində artımların olduğunu müşahidə etdim. Bu artımı səhiyyənin inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi, muxtar respublika əhalisinə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılması, sanitar-epidemioloji vəziyyətə nəzarətin gücləndirilməsi, güzəştli kateqoriyadan olan vətəndaşların dərman preparatları ilə təminatının daha da yaxşılaşdırılması, ixtisaslı kadrların yetişdirilməsi, xəstəliklərin profilaktikası və əhalinin maarifləndirilməsi tədbirlərinin daha da yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsi və muxtar respublika əhalisinə göstərilən dövlət qayğısının bariz nümunəsi kimi və qanun layihəsində təsbit olunan yenilikləri mütərəqqi dəyişikliklər kimi qiymətləndirirəm.

Muxtar respublikanın 2026-cı il büdcə layihəsində səhiyyə bölməsi üzrə xərclər 13 milyon 77 min 205 manat və ya 2,7 faiz həcmində proqnozlaşdırılıb ki, bu da 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 302 min 879 manat və ya 2,4 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 3 milyon 61 min 336 manat və ya 30,6 faiz çoxdur. Əminəm ki, digər sahələrlə yanaşı səhiyyə sahəsinə ayrılan vəsaitin miqdarında müşahidə olunan artım muxtar respublika əhalisinə göstərilən tibbi xidmətin daha da yaxşılaşdırılmasına, eyni zamanda muxtar respublikada ilkin səhiyyə xidmətlərində inkişafa nail olunmasına, tibb işçilərinin yüksək keyfiyyətli profilaktik və ilkin tibbi xidmət göstərilməsi üçün lazım olan bacarıqlara yiyələnmələri üçün mühüm addımların atılmasına xidmət edəcəkdir. Bu gün səhiyyə sisteminin inkişafına qoyulan sərmayə gələcəkdə iqtisadi göstəricilərdə özünü büruzə verəcəkdir. Çünki sağlam əhali həm də güclü iqtisadiyyat deməkdir.

Hörmətli iclas iştirakçıları,

Büdcə layihəsinin hazırlanmasında əməyi keçən hər kəsə minnətdarlığımı bildirir və hazırlanmış büdcə layihəsini dəstəkləyərək deputat həmkarlarımı da büdcə layihəsinin lehinə səs verməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Şəhla xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Canməmməd müəllim!

**C.Canməmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli hökumət üzvləri və iclas iştirakçıları!

Son illərdə ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində, demək olar ki, əksər bölgələrin siması əsaslı şəkildə dəyişibdir. Əlbəttə ki, bu tərəqqi və innovativ inkişaf Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasından da yan keçməyib. Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvanın qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar açır və bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların qoyuluşu, yeni investorların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması əsas prioritetlərdən birinə çevrilib. Məhz bunlar nəzərə alınaraq ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü ilin iyun ayının 5-də “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamı müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirdi.

Əlbəttə ki, Dövlət Proqramının icrasının müvəffəqiyyətlə davam etdirilməsi muxtar respublikanın sosial-iqtisadi qüdrətinin daha da artmasına təkan verir. Cənab Prezidentin davamlı qayğısı və Naxçıvanda həyata keçirilən infrastruktur layihələri, aparılan iqtisadi sabitlik siyasəti, iqtisadi və sosial inkişaf tədbirləri, büdcə xərclərinin səmərəliliyi, idxal modelindən ixrac modelinə keçid, məşğulluq səviyyəsi və digər iqtisadi göstəricilər Naxçıvanın iqtisadi cəhətdən artıq öz inkişaf yolunda ciddi addımlar atdığını göstərir.

Təqdim olunan son statistik və iqtisadi göstəricilər muxtar respublikanın sosial-iqtisadi inkişafının yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyir. Dövlət Proqramının uğurlu icrası nəticəsində büdcə səmərəliliyi və iqtisadi göstəricilərin artımı regionun inkişaf strategiyasının uğurunu açıq şəkildə göstərir. Belə ki, 2025-ci ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasında 1 milyard 337 milyon 251 min 600 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artmışdır. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun həcmi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz artaraq 2 min 835 manat olmuşdur. Həmçinin proqnoz göstəricilərinə əsasən, 2025-ci ildə Ümumi Daxili Məhsulun (ÜDM) gözlənilən həcmi 1 milyard 636 milyon 384 min manat təşkil edəcəyi, 2026-cı ildə isə bu göstəricinin əvvəlki illə müqayisədə 6,7 faiz artaraq 1 milyard 745 milyon 469 min manata çatacağı gözlənilir. 2026-cı il üzrə muxtar respublikanın büdcə gəlirlərinə nəzər saldıqda gəlirlərin artması Azərbaycan Respublikasının dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına 2026-cı ildə ayrılması nəzərdə tutulan dotasiyanın (transfertin yuxarı həddi) 2025-ci illə müqayisədə 74 milyon 85 min manat az planlaşdırılmasına imkan yaratmışdır. Sadalanan bu göstəricilər yalnız iqtisadi artımı deyil, həm də sosial rifahın yüksəlməsini, yəni vətəndaşların gündəlik həyatına müsbət təsiri göstərir. Dövlətin iqtisadi siyasəti həm resursların səmərəli idarə olunmasını təmin edir, həm də Naxçıvanın iqtisadi potensialının artmasına şərait yaradır.

Məlum olduğu kimi, ölkəmizdə sosial sahə ölkə başçısının daim diqqət mərkəzində olub. Əhalinin sosial müdafiəsi, maddi rifahının yüksəldilməsi, məşğulluğunun təmin olunması sahəsində hər il yeniliklər və təkmilləşdirmələr aparılaraq bu sahədə geniş islahatlar həyata keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq ölkəmizdə aparılan ardıcıl və genişmiqyaslı sosial islahatlar, aztəminatlı ailələrin məşğulluğunun artırılması, onların sosial müdafiəsinin gücləndirilməsi, əhalinin sağlamlığının qorunması, bütün sahələr üçün peşəkar kadr hazırlığı sahəsində reallaşdırılan tədbirlər bu gün Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir.

Naxçıvanda sosial müdafiə və aktiv məşğulluq proqramlarının icrası istiqamətində görülən işlər, sosial xidmət və reabilitasiya infrastrukturunun müasir tələblərə uyğun qurulması, sosial islahatlar proqramının həyata keçirilməsi sahəsində bir sıra yeniliklər tətbiq olunur. Həmçinin sosial sahədə idarəçilik və xidmətlər sistemində müasir innovativ həllərin, əmək, məşğulluq, sosial müdafiə sahələrində xidmətlərdə elektronlaşma və proaktiv təyinat mexanizmlərinin geniş tətbiqi həyata keçirilir.

Muxtar respublikada insanların sosial ədalət prinsipinə uyğun layiqli həyat şəraitinə malik olması, işlə təminatı, o cümlədən əmək münasibətləri, əməyin mühafizəsi, əlilliyi olan şəxslərin reabilitasiyası, şəhid və qazi ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, işaxtaran və işsiz vətəndaşların əmək fəaliyyətinə cəlb olunması, gənclərin və qadınların məşğulluğunun təmin olunması istiqamətlərində tədbirlər uğurla davam etdirilir.

Ümumilikdə, ötən dövrün mənzərəsi belə deməyə əsas verir ki, ölkəmizdə yüksələn xətlə inkişaf edən, hər il yeni layihələrlə, proqramlarla daha da təkmilləşdirilərək səmərəliliyi artırılan sosial siyasətin muxtar respublikamızda da uğurlu tətbiqinə nail olunub.

Bir məqamı da diqqətinizə çatdırmaq istərdim ki, əldə olunan bu sosial-iqtisadi göstəricilərə muxtar respublika blokada şəraitində olduğu halda nail olunub. Deməli qarşıdakı dövrdə Dövlət Proqramına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında azad iqtisadi zonanın yaradılmasından, sahibkarlar üçün 10 il müddətində güzəştlərin tətbiq olunmasından, burada sənaye parkının və sənaye məhəllələrinin yaradılmasından, həmçinin Zəngəzur dəhlizinin reallaşmasından sonra isə Naxçıvanın logistika mərkəzinə və investisiya zonasına çevrilməsindən sonra bu regionu ciddi şəkildə iqtisadi sıçrayış gözləyir.

Hörmətli iclas iştirakçıları!

Sonda Naxçıvan Muxtar Respublikasının 2026-cı ilin tam əhatəli və məqsədyönlü büdcə layihəsinin hazırlanmasında əməyi olan hökumət üzvlərinə təşəkkür edir və deputat həmkarlarımdan büdcə layihəsinin təsdiq olunması üçün səs vermələrini xahiş edirəm.

Diqqətiniz üçün təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun!

Başqa çıxış etmək istəyən varmı?

Buyurun, Mövlan müəllim!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli deputatlar, hökumət üzvləri və iclas iştirakçıları!

Hər birinizi salamlayıram!

“Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi müzakirə olunarkən ilk olaraq qeyd etmək istərdim ki, təqdim olunan sənəd, ümumilikdə, sosial yönümlü, balanslaşdırılmış və inkişafı hədəfləyən xarakter daşıyır. İnfrastrukturun yenilənməsi, enerji təchizatının etibarlılığının artırılması, iqtisadiyyatın şaxələndirilməsi, sərmayələr üçün daha cəlbedici mühitin formalaşdırılması kimi hədəflər 2026-cı ilin büdcə parametrlərində öz əksini tapır. 2026-cı ilin büdcə layihəsi hazırlanarkən həm ölkənin ümumi inkişaf strategiyası, həm də muxtar respublikanın özünəməxsus xüsusiyyətləri və ehtiyacları nəzərə alınmışdır. Bu isə öz növbəsində dövlət idarəçiliyində planlı və sistemli yanaşmanın nəticəsi kimi dəyərləndirilə bilər.

Xüsusilə onu vurğulamaq istərdim ki, büdcədə insan amili ön planda saxlanılıb. Sosial sahələrin, əhalinin rifahına təsir edən istiqamətlərin maliyyələşdirilməsi qorunur, bir çox hallarda artırılır. Bu, həm əhalinin gündəlik həyatına, həm də uzunmüddətli inkişaf perspektivinə müsbət təsir göstərə biləcək amildir. Vətəndaşların sosial rifahının qorunması, həssas təbəqələrin müdafiəsi, məşğulluğun artırılması, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi üçün kifayət qədər resurs nəzərdə tutulur. Bu, həm Naxçıvanda demoqrafik və sosial sabitliyin möhkəmlənməsinə, həm də insan kapitalının inkişafına xidmət edir.

Büdcənin müsbət tərəflərindən biri də regional inkişaf layihələrinin davamlı şəkildə dəstəklənməsidir. Yol, enerji, su təchizatı, rabitə və digər zəruri sahələrə ayrılan vəsaitlər muxtar respublikamızın şəhər və kəndlərində yaşayış şəraitinin yaxşılaşdırılmasına, biznes mühitinin genişlənməsinə və investisiya imkanlarının artmasına xidmət edir. Kənd təsərrüfatının və kiçik sahibkarlığın dəstəklənməsi həm məşğulluğun artırılması, həm də ərzaq təhlükəsizliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Yekun olaraq vurğulamaq istəyirəm ki, təqdim edilən büdcə layihəsi muxtar respublikamızın sabit, sistemli və perspektivli inkişafının təmin olunmasına, iqtisadiyyatın əsas sahələrinin balanslı şəkildə dəstəklənməsinə, eləcə də sosial rifahın və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin prioritet kimi qorunub saxlanılmasına yönəlmiş mühüm strateji sənəddir. Hesab edirəm ki, bu büdcənin ardıcıl və səmərəli icrası yaxın perspektivdə muxtar respublikamızın sosial-iqtisadi inkişafına yeni dinamika verəcək, mövcud nailiyyətlərin möhkəmləndirilməsinə və qarşıya qoyulan məqsədlərin daha qısa müddətdə reallaşdırılmasına əhəmiyyətli töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm!

Deputat həmkarlarımı lahiyəni dəstəkləməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun, Mövlan müəllim!

Deputatlardan əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Azad müəllim!

**A.Novruzov,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədr müavini.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli hökumət nümayəndələri və həmkarlar!

Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi ölkəmizin iqtisadi, sosial və strateji inkişaf kursuna uyğun şəkildə hazırlanmış bir sənəddir. Bu büdcənin formalaşdırılmasında, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvanın sosial-iqtisadi inkişafına göstərdiyi xüsusi diqqət və qayğı əsas istiqamət kimi götürülüb. Dövlət başçısının müəyyənləşdirdiyi inkişaf strategiyası bu sənədin hər bir bəndində öz əksini tapır.

Büdcə gəlirlərinin 30,9 faiz artım proqnozu Naxçıvanda iqtisadi aktivliyin yüksəlməsinin göstəricisidir.

Əvvəlki illərdə olduğu kimi 2026-cı ilin büdcəsində də ən mühüm cəhətlərdən biri onun sosialyönümlü olmasıdır. Sosial xərclər ümumi büdcənin 75,7 faizini təşkil edir. Pensiyalar, müavinətlər, ünvanlı dövlət sosial yardımları və digər sosial ödənişlər üçün 365,6 milyon manat vəsaitin ayrılması Prezidentimizin sosial siyasət modelinin - vətəndaş rifahının daim diqqət mərkəzində saxlanılmasının - Naxçıvanda da ardıcıl həyata keçirildiyini göstərir. Bu göstəricilər 2025-ci illə müqayisədə 8,5 faiz, 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə isə 22,4 faiz çoxdur.

Büdcə layihəsində diqqət çəkən məqamlardan biri də elm sahəsinə ayrılan vəsaitin artımı, təhsil bölməsinə büdcənin 32,6 faizinin yönəldilməsi, məktəbəqədər, ümumi, peşə və əlavə təhsil istiqamətlərinin hərtərəfli dəstəklənməsi dövlət başçısının elmin və təhsilin inkişafına verdiyi yüksək önəmin regional səviyyədə də uğurla davam etdiyini nümayiş etdirir.

Qeyd olunduğu kimi, səhiyyə sahəsi üzrə ayrılan 13 milyon 77 min 205 manat vəsait üzrə, xüsusilə 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 30 faizdən çox artım isə əhalinin sağlamlığının qorunmasına göstərilən diqqətin daha da gücləndiyini sübut edir.

Hörmətli həmkarlar!

2026-cı il büdcə layihəsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını təmin edən, regionun rifahını artıran, dövlət başçısının strateji xəttinə tam uyğun olan mühüm bir sənəddir. Əminik ki, bu büdcə muxtar respublikanın daha güclü, daha dayanıqlı inkişafını təmin edəcək, vətəndaşlarımızın maddi rifahına real töhfə verəcəkdir.

Sonda deputat həmkarlarımı büdcə layihəsini dəstəkləməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Azad müəllim!

Qanun layihəsi ilə bağlı əlavə çıxış etmək istəyən varmı?

Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Elşad müəllim!

Hörmətli deputatlar, kabinet üzvləri və iclas iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 2026-cı il üçün büdcə layihəsi muxtar respublikanın sosial-iqtisadi inkişaf strategiyasına, maliyyə-büdcə intizamının gücləndirilməsi tələblərinə və müasir idarəetmə prinsiplərinə uyğun şəkildə hazırlanmışdır. Layihə regionda iqtisadi dayanıqlılığın artırılmasını, daxili resurslar hesabına inkişaf potensialının genişləndirilməsini, maliyyə sabitliyinin qorunmasını və sosial rifahın yüksəldilməsini əsas hədəf kimi müəyyən edir.

2026-cı il üçün Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlirləri və xərcləri 483 milyon 178 min manat məbləğində proqnozlaşdırılır. Bu, muxtar respublikanın iqtisadi gücünün artması və maliyyə planlaşdırılmasının daha səmərəli aparıldığını göstərir. Büdcənin hazırlanması zamanı fiskal sabitlik, şəffaflıq və səmərəlilik prinsiplərinə xüsusi diqqət yetirilmişdir.

Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsində yerli daxilolmaların həcmi 2025-ci il proqnoz göstəriciləri ilə müqayisədə təxminən 31 faizədək artımla, yəni 271 milyon 550 min manat həcmində proqnozlaşdırılır. Yeri gəlmişkən qeyd edim ki, ilk dəfə olaraq muxtar respublika büdcəsində yerli daxilolmaların həcmi ayrılan dotasiyanın həcmini 59 milyon 922 min manat üstələyərək ümumi xərclərin 56,2 faizi həcmində nəzərdə tutulmuşdur ki, bu da iqtisadi fəallığın yüksəlməsi, sahibkarlıq mühitinin yaxşılaşması və vergi inzibatçılığının təkmilləşməsi ilə bağlıdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən 2026-cı il yanvar ayının 1-dən etibarən Naxçıvan Muxtar respublikasının rezidentləri 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən azaddır. Bu muxtar respublikanın sosial-iqtisadi inkişafına çox mühüm təsir göstərəcək, yeni istehsal sahələrinin yaradılmasına, iş yerlərinin açılmasına imkan verəcəkdir. Hətta bu güzəştlər fonunda muxtar respublika büdcəsində yerli daxilolmaların həcminin 2025-ci illə müqayisədə 64 milyon 120 min manat artımla proqnozlaşdırılması iqtisadi sahədə çox ciddi nailiyyətlərin əldə olunacağını göstərir.

Muxtar respublikanın uzun müddətdən bəri blokada şəraitində yaşaması onun hələ də mərkəzdən maliyyə dəstəyi - dotasiya almasını zəruri edir. Bu vəsait əsasən büdcə kəsirinin bağlanması, sosial layihələrin maliyyələşdirilməsi və yerli gəlirlərin çatmadığı hallarda xidmətlərin davamlılığını təmin etmək məqsədini daşıyır. Vəsaitlərin səmərəli xərclənməsi, şəffaflığın gücləndirilməsi dövlət büdcəsindən ayrılan dotasiyaya tələbi praktik olaraq hər il azaldır. 2026-cı ildə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan dotasiyanın təxminən 26 faiz, yaxud 74 milyon manatdan çox azaldılaraq 211 milyon 628 min manat həcmində proqnozlaşdırılması muxtar respublikanın maliyyə müstəqilliyinin gücləndiyini göstərir. Bu istiqamətdə aparılan islahatlar Naxçıvan iqtisadiyyatını daha da dayanıqlı edəcəkdir.

Büdcə zərfinin əsas xüsusiyyətlərindən biri, ənənəvi olaraq, onun sosial xarakteri ilə bağlıdır. 2026-cı il büdcəsində sosialyönümlü xərclər prioritet təşkil edir. Sosialyönümlü xərclərin 365 milyon 616 min 580 manat olmaqla büdcə xərclərinin 75,7 faizini təşkil etməsi sosial siyasətin növbəti ildə də prioritetliyini ifadə edir. Bu xərclərin 2025-ci ilin proqnoz göstəriciləri ilə müqayisədə 8,5 faiz artıq nəzərdə tutulması əhalinin rifahının yüksəldilməsi, təhsil və səhiyyə sistemlərinin modernləşdirilməsi, sosial müdafiə tədbirlərinin gücləndirilməsi üçün ciddi maliyyə təminatı yaradır.

Muxtar respublikanın 2026-cı il üzrə büdcəsi həm də iqtisadiyyatın real sektorunda canlanmanı hədəfləyir. Kənd təsərrüfatının dəstəklənməsi, sənaye istehsalının təşviqi, rəqəmsal həllərin tətbiqi sahələrində görüləcək işlər üçün maliyyə təminatı nəzərdə tutulmuşdur. Belə ki, muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən olan kənd təsərrüfatı xərclərinə büdcə xərclərinin 2,2 faizi və ya 10 milyon 776 min manat həcmində, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi üçün 7 milyon 300 min manat, iqtisadi fəaliyyət xərclərinə büdcə xərclərinin 9 faizi həcmində 43 milyon 655 min manat vəsaitin ayrılmasının nəzərdə tutulması iqtisadiyyatın aparıcı sahələrinin inkişafına, idxaldan asılılığın azaldılmasına zəmin yaradacaqdır.

2026-cı ilin büdcə göstəricilərində əksini tapan daxili gəlirlərin həcminin artması, əksər rayonların öz xərclərini daxili imkanlar hesabına təmin etməsi və sair bu kimi müsbət tendensiya ölkə başçısı cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür. Ölkə Prezidentinin diqqət və qayğısının nəticəsi olaraq Naxçıvanda müasir idarəetmə modelinin tətbiqi, aparılan institusional islahatlar, nəqliyyat imkanlarının genişləndirilməsi, ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyət çərçivəsində muxtar respublikanın yaşıl enerji zonası elan olunması, yeni sənaye parkının yaradılması və bütün bunların yekunu olaraq isə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın qəbul olunması yeni inkişaf mərhələsinin əsasını qoyub. Bundan başqa, yuxarıda da qeyd etdiyim kimi, gələn ildən etibarən muxtar respublika ərazisində qeydiyyatdan keçib burada fəaliyyət göstərən rezidentlərin 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq, sadələşdirilmiş vergilərdən və gömrük rüsumlarından azad edilməsi sahibkarlıq mühitinin əlverişliliyini artıracaq, yeni istehsal müəssisələrinin yaradılmasına təkan verəcəkdir. Həmçinin ölkə başçısının səyləri nəticəsində reallığa çevrilməkdə olan Zəngəzur dəhlizinin açılması Naxçıvanın blokada vəziyyətinin tam aradan qalxmasını təmin edəcəkdir. Bir neçə gün bundan öncə muxtar respublika ərazisində dəmir yollarının yenidən qurulması işlərinə başlanılması bu dəhlizin yaxın illərdə işə düşəcəyini bir daha təsdiq edir. Heç şübhəsiz ki, Zəngəzur dəhlizinin açılması Azərbaycanın əsas ərazisi ilə birbaşa quru əlaqələrinin açılması ilə yanaşı, muxtar respublikanın ticarət, logistika və sərnişindaşıma imkanlarını genişləndirəcək, iqtisadiyyatın bütün sahələrinə yeni dinamizm gətirəcəkdir. Eyni zamanda dəhlizin fəaliyyəti nəticəsində muxtar respublika regionda yeni logistika və tranzit mərkəzinə çevriləcək, turizm potensialı güclənəcək, ixrac imkanları artacaqdır. Bütün bunlar isə muxtar respublikanın sosial-iqtisadi inkişafına çox mühüm təsir göstərəcək, yeni istehsal sahələrinin yaradılmasına, iş yerlərinin açılmasına imkan verəcəkdir. Heç şübhəsiz sadalanan bu tədbirlər yaxın gələcəkdə artıq Naxçıvan Muxtar Respublika büdcəsində bütün xərclərin daxili gəlirlər hesabına təmin edilməsinə, dotasiyanın aradan qalxmasına, büdcədə investisiyayönümlü xərclərin həcminin də artmasına, sonda isə regionun iqtisadi cəhətdən müstəqilliyinə səbəb olacaq, yerli əhalinin sosial rifahını daha da yaxşılaşdıracaq və muxtar respublikanı rəqabətqabiliyyətli bir iqtisadi mərkəzə çevirəcəkdir.

Son olaraq bildirirəm ki, 2026-cı ilin büdcəsi Naxçıvan Muxtar Respublikasının iqtisadi müstəqilliyini artırmaq, sosial rifahı gücləndirmək və uzunmüddətli inkişaf perspektivlərini təmin etmək üçün mühüm maliyyə sənədidir. Növbəti ilin büdcə layihəsi yeni dövrün çağırışlarını və reallıqlarını nəzərə almaqla müəyyən edilmiş strateji vəzifələri və təşəbbüsləri aydın şəkildə əks etdirir və bunların icrası üçün zəruri maliyyə təminatı yaradır. Əminəm ki, bu büdcə regionumuzun davamlı inkişafına xidmət edəcək və muxtar respublikanın ölkə üzrə iqtisadi sistemdə rolunu daha da artıracaqdır.

“Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanmışdır. Bu baxımdan deputat həmkarlarımı təqdim olunmuş layihənin lehinə səs verməyə çağırıram.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Rafiq müəllim!

Əlavə çıxış etmək istəyən varmı?

Yoxdur.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6-cı maddəsinə əsasən Ali Məclisin İqtisadi siyasət komitəsi təqdim olunmuş qanun layihəsinə dair rəyləri qəbul edir. Buna müvafiq olaraq İqtisadi siyasət komitəsinin rəyini bildirmək üçün söz Emin Şıxəliyevə verilir.

Buyurun!

**E.Şıxəliyev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim,

5 dekabr 2025-ci il tarixdə aparıcı komitə İqtisadi siyasət komitəsi olmaqla komitələrin birgə iclası keçirilmişdir. İclasda Ali Məclisin komitə sədrləri və müavinləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri və müavini, Aparatın digər əməkdaşları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının şöbə müdirləri, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri və müavini, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavininin iştirakı ilə “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi müzakirə edilmişdir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanunun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin İqtisadi siyasət komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının müzakirəsinə təqdim oluna bilər.

Təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Emin müəllim!

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, təkliflər və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşu ilə bağlı səsvermədə iştirak edən 42 deputatın hamısı layihənin lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Etiraz etmirsinizsə, 15 dəqiqəlik fasilə edək və sonra gündəlikdə duran növbəti məsələlərin müzakirəsini davam etdirək.

“Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi yekunlaşmışdır. Baş nazirin birinci müavininə, maliyyə nazirinə, iqtisadiyyat nazirinə, Nazirlər Kabinetinin digər üzvlərinə və Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisinə iclasda iştiraklarına görə təşəkkür edirik. Bildirmək istəyirəm ki, fasilədən sonra iclasda iştirak etməyə bilərsiniz.

Çox sağ olun! Başqa təklifi olan varmı?

Yoxdur.

15 dəqiqə fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli deputatlar, iclasımız davam edir.

Gündəlikdə müzakirə olunan ikinci məsələ ikinci oxunuşda olan “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsidir.

Qanun layihəsi Ali Məclisin 7 noyabr 2025-ci il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilmiş, təqdim edilən təkliflər və iradlar nəzərə alınaraq layihə üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul edilmişdir.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

“Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 3 maddəsində dəyişiklik edilməsi nəzərdə tutulur. Dəyişikliklərə əsasən 2 maddənin ləğv edilməsi, 1 maddəyə yeni əlavə edilməsi, 4 maddənin nömrələnməsində texniki xarakter daşıyan dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Qanun layihəsinin hazırlanmasında əsas məqsəd Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reysterinin strukturuna daxil olan normativ xarakterli aktlar qəbul etmək səlahiyyəti olan Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının ləğv edilməsi ilə bağlı, eləcə də normativ hüquqi aktın qüvvədən düşmüş hesab edilməsi ilə bağlı qərar olacağı təqdirdə normativ hüquqi aktı qəbul edəcək subyektin müəyyən edilməsi ilə bağlı mövcud boşluğun aradan qaldırılmasıdır.

Dəyişikliyə əsasən "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 4.1.3-cü maddəsi ləğv edilərək Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının qərarları Naxçıvan Muxtar Respublikasının normativ xarakterli aktlarının siyahısından çıxarılır, eyni zamanda 75.0.2.3-cü maddəsi ləğv edilərək Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının qərarları Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reysterinin strukturundan çıxarılır.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 26 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası ləğv edilmişdir, faktiki olaraq həmin qurum artıq mövcud deyil və bu səbəbdən qeyd etdiyimiz 2 dəyişikliyin hüquqi əsasını təşkil edir.

Qanuna təklif edilən dəyişikliyə əsasən bu Qanunun 84.1.3-cü maddəsinə uyğun olaraq "Normativ hüquqi akt onun struktur elementi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt onun struktur elementi onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir" məzmununda 84.2-ci maddə əlavə edilir.

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası ərazisində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi konstitusiya nəzarətini həyata keçirir və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi müraciət olduğu təqdirdə daha aşağı hüquqi qüvvəyə malik normativ hüquqi aktın yuxarı hüquqi qüvvəyə malik normativ hüquqi akta zidd olduğunu müəyyən etdikdə onu qüvvədən düşmüş hesab edir. Lakin qanunun hazırkı redaksiyasında belə bir müraciət olacağı təqdirdə və Konstitusiya nəzarətini həyata keçirən orqan tərəfindən bu müraciətin təmin olunacağı təqdirdə həmin normanın qanunun mətnindən hansı subyekt tərəfindən çıxarılması ilə bağlı qeyri-müəyyənlik mövcud idi və təklif edilən dəyişikliklə artıq bu qeyri-müəyyənlik ortadan qaldırılır və həmin qüvvədən düşmüş normativ aktın mətnini qanunun mətnindən çıxarmaq səlahiyyəti artıq həmin normayaratma orqanına verilir.

Eyni zamanda 84-cü maddə texniki xarakter daşıyır hansı ki, bunlar normativ hüquqi aktın struktur elementlərinin nömrələnməsi ilə bağlıdır. 4 dəyişiklik edilməsi nəzərdə tutulur. Göründüyü kimi, təklif edilən dəyişikliklərin hamısı mövcud boşluqların aradan qaldırılmasına istiqamətlənmiş əhəmiyyətli dəyişikliklərdir. Qeyd etməliyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.6-cı maddəsinə əsasən birinci oxunuşda qəbul edilmiş qanun layihəsinə dair təklif və iradları aparıcı komitə öyrənir və ümumiləşdirir.

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Hüquq siyasəti komitəsinin 13 dekabr 2025-ci il tarixdə keçirilən iclasında geniş müzakirə olunmuşdur. Müzakirə zamanı qanun layihəsi ilə bağlı hər hansı təklif irəli sürülməmiş və bununla da Hüquq siyasəti komitəsinin protokol qaydasında qəbul edilmiş qərarı ilə qanun layihəsi ikinci oxunuşa təqdim edilməsi üçün aidiyyəti üzrə göndərilmişdir.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 20.3-cü maddəsinə əsasən ikinci oxunuşda müzakirə edilən qanun layihəsinin əsas kimi qəbul edilməsi barədə protokol qaydasında qərar qəbul edilməlidir.

Bu cür qərar qəbul edilməzsə, qanun layihəsi qəbul edilməmiş sayılır.

Deputatlardan kim "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin əsas kimi qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda əsas kimi qəbul edilməsi ilə bağlı səsvermədə iştirak edən 42 deputatın hamısı lehinə səs vermiş, əleyhinə və səs saxlayan yoxdur.

**Sədrlik edən.** Sağ olun!

Beləliklə, qanun layihəsi əsas kimi qəbul edildi.

Hörmətli həmkarlar, Daxili Nizamnamənin 20.4-cü maddəsinə uyğun olaraq təklif edirəm ki, qanun layihəsinə etirazı olan varsa maddə-maddə müzakirə edək, yoxdursa ikinci oxunuşdan qəbul edək.

Etirazı olan varmı?

Yoxdur.

Deputatlardan kim "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat qanun layihəsinin ikinci oxunuşda lehinə səs vermiş, əleyhinə və ya səs saxlayan yoxdur.

**Sədrlik edən.** Sağ olun!

Beləliklə, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması məqsədi ilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanmış, deputatlara təqdim edilmişdir.

Layihə Hüquq siyasəti komitəsinin 13 dekabr 2025-ci il tarixli iclasında komitə sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat vermək və komitənin rəyini bildirmək üçün söz Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyevə verilir.

Buyurun, Əjdər müəllim!

**Ə.Əliyev,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 2 maddəsində dəyişiklik edilməsi nəzərdə tutulub. Dəyişikliyə əsasən hər iki maddəyə yeni sözlər əlavə edilir.

Qanun layihəsinin hazırlanmasında məqsəd "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğunlaşdırılması, eyni zamanda qanunda nəzərdə tutulmuş müddəaların daha da dəqiqləşdirilməsidir.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə 13 dekabr 2025-ci il tarixdə Ali Məclisin Hüquq siyasəti komitəsində baxılmış, komitə iclasında qanun layihəsi Hüquq siyasəti komitəsinin üzvlərinin və Ali Məclis Aparatının əməkdaşlarının iştirakı ilə müzakirə olunmuş, iclasda rəy layihəsi hazırlanmış və səsə qoyularaq qəbul edilmişdir.

İcazənizlə, rəyi diqqətinizə çatdırıram.

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin rəyi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinə daxil olmuş “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılmasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmış, komitənin 13 dekabr 2025-ci il tarixli iclasında komitənin sədri, sədr müavini və üzvlərinin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Qanun layihəsi “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının 2011-ci il 19 iyul tarixli 6-IV QN nömrəli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri və “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 6.2-ci maddəsini nəzərə alaraq Ali Məclisin Hüquq siyasəti komitəsi qeyd edir ki, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilmək üçün təqdim oluna bilər.

Sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əjdər müəllim!

Qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olanlar varmı?

Yoxdur.

Hörmətli deputatlar!

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsinə birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir və onun üzərində iş davam etdirilir.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Rafiq müəllim!

**R.Novruzov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda səsverməsində iştirak edən 42 deputat layihənin lehinə səs vermiş, əleyhinə və ya səs saxlayan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli deputatlar!

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclası öz işini başa çatdırdı.

Sağ olun!